# EU4Environment

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukraynada

**Ekoloji siyasətin təkmilləşdirilməsi və tətbiqi iqtisadi inkişaf, davamlılıq və insanların rifahı üçün vacibdir. Bu, eyni zamanda, biomüxtəlifliyin qorunması və iqlim dəyişiklikləri kimi məsələlərin həlli yollarının müəyyən edilməsində mühüm rol oynayır.**

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən yeni "EU4Environment" layihəsinin məqsədi - təbii sərvətləri qorumaq və ondan daha yaxşı istifadə etmək, insanların ekoloji rifahını yaxşılaşdırmaq və altı Şərq Tərəfdaşlığı ölkəsində - Azərbaycan, Belarus, Gürcüstan, Ermənistan, Moldova və Ukrayna - iqtisadi inkişafı stimullaşdırmaqdır.

**Ekoloji və iqtisadi iştirakçıları bir araya gətirməklə**, "EU4Environment" layihəsi siyasət və qanunvericilikdə dəyişikliklərin edilməsinə, yaşıllaşdırma ilə bağlı planların qurulub investisiyaların yatırılmasına, innovativ texnologiyaların qəbulunun situmullarşdırılmasına, yeni biznes modellərinin qəbuluna, "yaşıl" iş yerlərinin yaradılmaısna kömək edir. Bu layihə, eyni zamanda, daha yaxşı idarəetməni, mühafizə olunan ərazilərin, meşələrin və davamlı ticarətin təkmilləşdirilmiş idarəetmə sistemini təşviq edir.

Bu fəaliyyət Şərq qonşuluğunda yaşıl iqtisadiyyat (EaP GREEN), Meşə qanunvericiliyinin tətbiqinin təmin olunması və idarə olunması (FLEG) və Zümrüd şəbəkəsi (2017-2018-ci ildə başa çatdırılıblar) kimi əvvəlki əməkdaşlıq planlarının mühüm nailiyyətlərinə əsaslanır.

EU4Environment 2017-ci ilin noyabr ayında Şərq Tərəfdaşlığı Zirvə toplantısında **"2020-ci il üçün 20 məqsəd"** layihəsinin bir hissəsi kimi təsdiqlənmiş əməkdaşlığı nəzərə alır.

Bu Fəaliyyətin beş beynəlxalq təşkilat tərəfindən icra edilməsi nəzərdə tutulur: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, BMT-nin Ətraf mühit Proqramı, BMT-nin Avropa İqtisadi Komissiyası, BMT-nin Sənaye İnkişafı Təşkilatı və Dünya Bankı.

Avropa Komissiyası ümumi istiqamət verir.

Daha ətraflı məlumat üçün:
EU4Environment@oecd.org

#strongertogether

10 YEARS EaP Eastern Partnership



Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

## Şərq Tərəfdaşlığı ölkələrində "Avropa İttifaqı tərəfindən Ətraf Mühitə dəstək"

# EU4Environment

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukraynada

© marcinjucha/shutterstock

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | WORLD BANK GROUP

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | WORLD BANK GROUP

# EU4Environment

Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukraynada

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir



© UBCstock/shutterstock

**Məqsəd**: Avropa İttifaqının “EU4Environment” layihəsinin məqsədi ekoloji fəaliyyətləri dəstəkləməklə, yaşıl inkişaf imkanlarını nümayiş etdirməklə və ekoloji risk və təsirlərin daha yaxşı idarə olunması üçün mexanizmləri müəyyənləşdirməklə tərəfdaş ölkələrin (altı) təbii sərvətlərini qorumağa və əhalinin rifahını yaxşılaşdırmağa kömək etməkdir.

**Tərəfdaş ölkələr**: Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

**Müddət**: 2019-2022

**Büdcə**: 20 milyon AVRO (Aİ töhfəsi: 19.5 milyon AVRO)

**İcraçı tərəfdaşlar**: İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, BMT-nin Ətraf mühit Proqramı, BMT-nin Avropa İqtisadi Komissiyası, BMT-nin Sənaye İnkişafı Təşkilatı, Dünya Bankı

**Ümumi istiqamət**: Avropa Komissiyasının Qonşuluq və Genişlənmə Danışıqları üzrə Baş Direktorluğu (DG NEAR)

## Tədbirlər beş prioritet nəticə üzrə qruplaşdırılıb:

### 1. Daha “Yaşıl” qərar-qəbuletmə

- Yaşıl inkişafla əlaqədar qurumlararası siyasi dialoq platformalarının və **yaşıl iqtisadiyyat hədəflərinin** və digər davamlılıq məsələlərinin planlaşdırmaya daxil edilməsinin dəstəklənməsi
- **İnvestisiya ehtiyaclarının** qiymətləndirilməsinə yardım
- Beynəlxalq tələblərə tam cavab verən **strateji ekoloji qiymətləndirmə (SEQ)** və trans-sərhəd **ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ)** üzrə potensialın gücləndirilməsinə və əlaqəli hüquqi islahatların aparılmasına dəstək
- Yaşıl iqtisadiyyat, ekoloji fəaliyyət və davamlı həyat tərzi ilə bağlı **məlumatlılığın artırılması**

İcraçı təşkilatlar: **BMT-nin Avropa İqtisadi Komissiyası, BMT-nin Ətraf mühit Proqramı və BMT-nin Sənaye İnkişafı Təşkilatı (koordinator)**

### 2. Dövri iqtisadiyyat və yeni inkişaf imkanları

- **Kiçik və Orta Müəssisələrə (KOM)** strateji və gündəlik qərarlara davamlılıq məsələlərinin daxil edilməsi istiqamətində dəstəyin göstərilməsi
- **“Yaşıl” məhsullar üçün vahid bazar** ilə əlaqəli Aİ konsepsiyaları və alətlərinin təşviqi
- **“Yaşıl” dövlət satınalmaları və xidmətlərinin** həyata keçirilməsinə dəstək
- **Tullantıların idarə olunması** məsələlərinin həllinə dəstək
- **Yaşıl iqtisadiyyatın prioritet sektorları** (məs., enerji səmərəliliyi, kənd təsərrüfatı/qida, tikinti, davamlı turizm və ya regional inkişaf) **üzrə islahatların** aparılmasına texniki dəstək
- KOM-lar arasında ekoloji **dəyər zənciri və məhsul innovasiyasına** dəstək

İcraçı təşkilatlar: **BMT Ətraf mühit Proqramı və BMT-nin Sənaye İnkişafı Təşkilatı (koordinator)**

### 3. Ekoloji cəhətdən bərabər şərtlərin təmin edilməsi

- Böyük müəssisə və KOM-ların ekoloji fəaliyyətini təşviq edən **“ağıllı” qaydaların** və siyasi alətlərinin müəyyən edilməsində yerli qurumlara dəstək
- Ekoloji tələblərlə uyğunluğu təmin etmək məqsədi ilə **uyğunluğun təşviqi və tətbiqi müəssisələrinin və alətlərinin** səmərəliliyinin gücləndirilməsi
- **Yaşıl dövlət investisiya strategiyaları və proqramlarının layihələndirilməsində və dəyərləndirilməsində** yerli qurumlara yardım
- Ətraf mühitin idarə olunmasında inzibati potensialın dəstəklənməsi
- **Müvafiq dövlət qulluqçuları və** digər maraqlı tərəflərə **təlimlərin keçirilməsi**

İcraçı təşkilatlar: **İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı**

### 4. Ekosistem xidmətləri və yaşayış şəraiti

- Aİ və qonşu ölkələrin daxil olduğu **mühafizə olunan ərazilərin paylaşılan şəbəkəsinin yaradılması**
- Qeyri-oduncaq məhsullarının istehsalını, biokütlə ilə əlaqəli enerji səmərəliliyini artırmaq **məqsədi ilə meşələrin mühafizəsi və davamlı istifadəsi** üzrə ictimai fəaliyyətlərin dəstəklənməsi
- Qeyri-qanuni oduncaq ticarətini məhdudlaşdıran tədbirlər
- **Davamlı ekosistem xidmətlərinin idarəsi ilə bağlı innovativ maliyyələşdirmə** sxemlərinin müəyyənləşdirilməsi və inkişafına dəstək

İcraçı təşkilatlar: **Dünya Bankı**

### 5. Biliyin paylaşılması və koordinasiyası

- Fəaliyyətin daha da yayılması üçün strateji **kommunikasiya fəaliyyətlərinin** görülməsi
- Təşəbbüsün müxtəlif elementlərinin **regional koordinasiyası**
- İqtisadi və ekoloji məqsədlərin inteqrasiyası ilə tərəqqiyə nəzarət və **Yaşıl İnkişaf Göstəriciləri əsasında** hesabatların hazırlanması

İcraçı təşkilatlar: **Bütün tərəfdaşlarla əməkdaşlıq çərçivəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı**

10 YEARS EaP Eastern Partnership